

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# Şərq qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 29 (21.690)

*10 fevral 2017-ci il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 9-da Milli Qəhrəman Çingiz Qurbanovun ailə üzvləri ilə görüşüb.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 9-da Avropa Şurası Parlament Assambleyasının hüquqi işlər və insan hüquqları komitəsinin Azərbaycan üzrə məruzəçisi Alan Destexi qəbul edib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 9-da Dünya Bankının Avropa və Mərkəzi Asiya üzrə vitse-prezidenti Siril Mülleri qəbul edib.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 9 fevral 2017-ci il tarixli Sərəncamı ilə xidməti vəzifələrini və qarşıya qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqləndiklərinə görə Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin bir qrup hərbi qulluqçusu təltif edilmişdir. Təltif olunanlar arasında Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin əməkdaşları da vardır.

**Salmanov Səxavət İbrahim oğlu – general-mayor**

**Məmmədov İlham Aydın oğlu – polkovnik-leytenant**

"Hərbi xidmətlərə görə" medalı ilə təltif edilmişlər.

## Naxçıvan Muxtar Respublika mükafatının verilməsi haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Naxçıvan tarixi" çoxcildliyinə elm sahəsində Naxçıvan Muxtar Respublika mükafatı verilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 9 fevral 2017-ci il*

# Mükafatların təqdimatı olmuşdur





Fevralın 9-da – Naxçıvan Muxtar Respublikasının yaranmasının 93-cü ildönümü günündə mükafatların təqdim olunması münasibətilə tədbir keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Naxçıvan Muxtar Respublikasının yaradılmasının 93-cü ildönümü münasibətilə muxtar respublika əhalisini və tədbir iştirakçılarını təbrik edərək demişdir: Ötən 93 il ərzində Naxçıvanın muxtar respublika kimi yaşaması nəticəsində onun ərazisi qorunmuş, muxtar respublika inkişafa qovuşmuşdur. Bu inkişaf müstəqillik dövründə daha da artmış, Naxçıvan Muxtar Respublikasında bütün sahələrdə uğurlar qazanılmışdır. Ümummilli liderimizin siyasi xəttinə sədaqətin bəhrələri şəhər və rayon mərkəzlərinin, qəsəbə və kəndlərimizin dəyişən simasında, tikilən infrastruktur obyektlərində, insanların həyat şəraitinin yaxşılaşmasında, ordu quruculuğunda özünü göstərir. Artan iqtisadi imkanlar muxtar respublikada elmin, təhsilin və mədəniyyətin inkişafına da öz təsirini göstərmiş, Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi və Ali Məclisin Naxçıvanşünaslıq Mərkəzi yaradılmışdır. Naxçıvan tarixi sistemli şəkildə tədqiq olunmuş, abidələrimiz bərpa edilmiş, tariximizə və mədəniyyətimizə aydınlıq gətirən elmi əsərlər, kitablar və ensiklopediyalar, o cümlədən "Naxçıvan tarixi" çoxcildliyi nəşr olunmuşdur.

Ali Məclisin Sədri demişdir: Bu gün Naxçıvan Muxtar Respublikası özünün tarixinə və milli dəyərlərinə sahib çıxır. Gənc nəsil milli dəyərlər əsasında tərbiyə olunur, sağlam gələcək formalaşdırılır. İstedadlı gənclər də üzə çıxarılaraq təqaüdlərə layiq görülürlər. Bir sözlə, insan amilinə böyük diqqət göstərilir. Aparılan quruculuq işlərinə, elmin və mədəniyyətin inkişafına öz töhfəsini verənlərin əməyi yüksək qiymətləndirilir, onlar dövlət mükafatları ilə təltif olunurlar.

Ali Məclisin Sədri mükafatlara layiq görülənlərin hamısını təbrik etmiş, elmimizin və mədəniyyətimizin inkişafı yolunda uğurlar arzulamış, çıxışını hörmətli Prezidentimiz İlham Əliyevin muxtar respublikaya səfəri zamanı qeyd etdiyi fikirlərlə tamamlamışdır: ***"Son illər ərzində Naxçıvan böyük inkişaf yolu keçmişdir. Naxçıvan şəhərinin abadlaşdırılması, gözəlləşdirilməsi, infrastruktur layihələrinin icrası, bütün şəhər və kəndlərin abadlaşması prosesi onu göstərir ki, respublika möhkəm ayaqda dayanır. Bu gün Naxçıvan Muxtar Respublikasının çiçəklənmə dövrüdür. Çünki bütün istiqamətlər üzrə işlər uğurla gedir və gözəl nəticələr var".***

Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü Qadir Qədirzadə çıxış edərək demişdir ki, müstəqillik illərində Naxçıvan Muxtar Respublikasında sosial-iqtisadi inkişafla yanaşı, elm, təhsil və mədəniyyətin inkişafına da böyük önəm verilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikası ərazisindəki tarix və mədəniyyət abidələrinin qorunması və pasportlaşdırılması işinin təşkili haqqında" 6 dekabr 2005-ci il tarixli Sərəncamına əsasən muxtar respublika ərazisində 1200-dən artıq abidə qeydə alınmışdır. Aparılan araşdırmaların nəticəsi olaraq Azərbaycan və ingilis dillərində "Naxçıvan Abidələri Ensiklopediyası", 2 cildlik "Naxçıvan Ensiklopediyası", "Naxçıvan Tarixi Atlası" kimi fundamental əsərlər nəşr edilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan tarixi" çoxcildliyinin hazırlanması və nəşr olunması barədə" 6 avqust 2012-ci il tarixli Sərəncamından sonra isə Naxçıvanın ən qədim dövründən günümüzədək olan böyük bir tarixi dövrü əhatə edən "Naxçıvan tarixi" çoxcildliyi nəşr olundu. Naxçıvan Muxtar Respublikasının tarixində elm və elm adamları heç vaxt indiki qədər qayğı ilə əhatə olunmayıb. Bu diyarda heç vaxt elm indiki qədər inkişaf etməyib. Muxtar respublikada təkcə elmi araşdırmalara deyil, müəlliflərə də böyük diqqət və qayğı ilə yanaşılır, onların əməyi yüksək qiymətləndirilir. Azərbaycan Milli Elmlər Akademiyasına keçirilən seçkilərdə Naxçıvandan olan elm adamlarından 3-ü akademik, 11-i isə müxbir üzv seçilmişdir. Müxtəlif ixtisaslar üzrə elmlər doktoru, fəlsəfə doktorları hazırlanmış, elm sahəsində fərqlənmiş bir sıra alimlər fəxri adlar, orden və medallar, diplom və müxtəlif mükafatlarla təltif olunmuşlar. Qadir Qədirzadə Naxçıvan Muxtar Respublikasında elmin inkişafına göstərdiyi diqqət və qayğıya görə elmi ictimaiyyət adından Ali Məclisin Sədrinə minnətdarlıq etmişdir.

Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun şöbə müdiri Zeynəb Quliyeva demişdir ki, Naxçıvanın zəngin tarixinin hərtərəfli, sistemli şəkildə araşdırılması təkcə bu qədim diyarın keçdiyi şərəfli yolun öyrənilməsi baxımından deyil, bütövlükdə Azərbaycanımızın tarixinin kompleks tədqiqi üçün də böyük əhəmiyyətə malikdir. Son illər muxtar respublika tarixinin tədqiqi istiqamətində mühüm işlər görülmüşdür. "Nuh Peyğəmbər: Dünya tufanı və Naxçıvan", "Naxçıvan: ilk yaşayış və şəhərsalma yeri kimi", "Naxçıvan: ilkin şəhər və Duzdağ" və başqa mövzulardakı beynəlxalq simpoziumlar elmi təfəkkürün Naxçıvan tarixinin qaranlıqda qalmış sahələrinə nüfuz etməsində stimul yaratmış, çoxlu sayda əsərlər yaranmışdı. "Naxçıvan tarixi" çoxcildliyi isə Naxçıvanda bu vaxtadək aparılmış elmi tədqiqatların ümumiləşdirilmiş nəticəsidir. Alim və tədqiqatçılar elmi fəaliyyət üçün yaradılan şəraitdən bundan sonra da səmərəli istifadə edərək Naxçıvanşünaslığı zənginləşdirəcəklər.

Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, akademik İsa Həbibbəyli çıxış edərək demişdir ki, Naxçıvan Muxtar Respublikasının yaranması Azərbaycan tarixində mühüm hadisədir. Ötən 93 ildə muxtar respublika böyük inkişaf yolu keçmişdir. Bu gün Naxçıvan müasir inkişafın göstəricisi kimi qəbul olunur. Muxtar respublikanın kompleks inkişafında elmin və təhsilin xüsusi yeri vardır. Son illər Naxçıvan Dövlət Universitetinin, "Naxçıvan" Universitetinin, Naxçıvan Müəllimlər İnstitutunun, o cümlədən bütün təhsil müəssisələrinin müasir tədris bazası ilə təmin olunması, Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsində alim və tədqiqatçılar üçün hərtərəfli şəraitin yaradılması, təşkil olunan ekspedisiyalar, aparılan arxeoloji qazıntılar Naxçıvanda elmin və təhsilin inkişafını yeni mərhələyə yüksəltmişdir. "Naxçıvan tarixi" çoxcildliyinin nəşri də muxtar respublikada elmə və təhsilə qayğının nəticəsi kimi ortaya çıxmışdır. "Naxçıvan tarixi" çoxcildliyi Azərbaycan tarixşünaslıq elminə mühüm töhfədir. İsa Həbibbəyli Naxçıvan Muxtar Respublikasının yaranmasının 93-cü ildönümü münasibətilə Azərbaycan elmi ictimaiyyəti adından təbriklərini çatdırmışdır.

Naxçıvan Musiqi Kollecinin tələbəsi, gənc istedad Sərxan Əliyev qeyd etmişdir ki, gənclər Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin onlara göstərilən qayğısını daim hiss edirlər. Bunun bariz nümunəsi muxtar respublikamızda yeni istifadəyə verilən təhsil müəssisələrində, gənclik mərkəzlərində, elektron kitabxanalarda, mədəniyyət müəssisələrində, musiqi məktəblərində, ali təhsil müəssisələrində, olimpiya-idman kompleksləri və idman mərkəzlərində gənclərin hərtərəfli inkişafı, eləcə də asudə vaxtlarının səmərəli təşkili üçün yaradılan zəruri

*Ardı 2-ci səhifədə*

şəraitdir. Bununla yanaşı, muxtar respublikamızın ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında da biz gənclərin yaxından iştirakı üçün hər cür şərait vardır. Sevindirici haldır ki, gənclərimiz yaradıcılıq potensiallarını daim artırır, təhsildə və idmanda uğurlar qazanır, müxtəlif dövlət orqanlarında, icra strukturlarında, özəl bölmədə geniş təmsil olunurlar. Bu isə bugünkü gəncliyin sabaha inamını daha da artırır, onların fəallığına müsbət təsir göstərir. Sərxan Əliyev gəncliyə göstərilən diqqət və qayğıya görə muxtar respublika gəncləri, o cümlədən gənc istedadlar adından minnətdarlıq etmişdir.

Sonra mükafatlar təqdim olunmuşdur. Qeyd olunmuşdur ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 9 fevral tarixli Sərəncamına əsasən "Naxçıvan tarixi" çoxcildliyi elm sahəsində Naxçıvan Muxtar Respublika mükafatına layiq görülmüşdür.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov "Naxçıvan tarixi" çoxcildliyinə görə Naxçıvan Muxtar Respublika mükafatını Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyevə təqdim etmişdir.

İsmayıl Hacıyev minnətdarlıq edərək demişdir ki, Naxçıvanın tarixinin öyrənilməsi üçün yaradılan şərait alim və tədqiqatçıların qarşısında mühüm vəzifələr qoyur. Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin kollektivi bundan sonra da yaradılan şəraitdən istifadə edərək səylə çalışacaqdır.

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin əməkdaşlarının təltif edilməsi



haqqında" 2017-ci il 27 yanvar tarixli Sərəncamı ilə Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin bir qrup əməkdaşı "Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə təltif edilmişdir. Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü Qadir Qədirzadənin "Dünya və insan: başlanğıcın sonu, sonun başlanğıcı" kitabı isə Ali Məclis Sədrinin mükafatına layiq görülmüşdür. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Gənc istedadların xüsusi təqaüdə layiq görülməsi haqqında" 14 yanvar 2017-ci il tarixli Sərəncamına əsasən xüsusi istedadı olan Naxçıvan Musiqi Kollecinin tələbəsi Sərxan Əliyevin və Naxçıvan şəhər 8 nömrəli tam orta məktəbin şagirdi Pərviz Qasımovun adları Naxçıvan Muxtar Respublikası gənc istedadlarının "Qızıl kitabı"na yazılaraq, Ali Məclis Sədrinin xüsusi aylıq təqaüdünə layiq görülmüşlər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov "Dövlət qulluğunda fərqlənməyə görə" medalının döş nişanını və vəsiqəsini, Ali Məclis Sədrinin mükafatını, gənc istedadlara isə təqaüd kartlarını təqdim etmişdir.

Tədbirdə Naxçıvan Dövlət Filarmoniyasının İnstrumental Ansamblının konserti olmuşdur.

Sonda tədbir iştirakçıları və ziyalılarla söhbət edən Ali Məclisin Sədri demişdir ki, Naxçıvan tarixi uzun illər ətraflı tədqiq olunmamışdır. Sanballı mənbələrdən istifadə edilərək yazılan "Naxçıvan tarixi" çoxcildliyinin nəşri Naxçıvanın əsl tarixini ortaya qoymaqla yanaşı, həm də Azərbaycan tarixşünaslığına sanballı töhfədir. Son illər Naxçıvanda elmin və təhsilin inkişafı sahəsində görülən işlər, akademiyanın Naxçıvan Bölməsinin yaradılması Naxçıvanın tarixi ilə bağlı elmi əsaslara söykənən əsərlərin yazılmasına imkan vermişdir. İqtisadiyyatı inkişaf etdirmək, yol çəkmək, bina tikmək bütün dövrlərdə mümkündür. Lakin elmi, təhsili və mədəniyyəti inkişaf etdirmək çətin və məsuliyyətli məsələdir. Naxçıvanda digər sahələrlə yanaşı, elm, təhsil və mədəniyyətin də inkişafına nail olunub. Bu gün Naxçıvan Muxtar Respublikasının inkişafı, bütün sahələrdə qazanılan uğurlar ümummilli liderimiz Heydər Əliyevin siyasi xəttinə sədaqətin bəhrələridir. Naxçıvan Muxtar Respublikasının yaranmasının 93-cü ildönümü günündə "Naxçıvan tarixi" çoxcildliyinin muxtar respublika mükafatına layiq görülməsi, "Gülüstan türbəsi", "Naxçıvan dünya mətbuatında" kitablarının və "Məmməd Araz qrafik albomu"nun "Şərq qapısı" qəzetində geniş ictimaiyyətə təqdim olunması mühüm əhəmiyyətə malikdir. Alim və tədqiqatçılar bundan sonra da Naxçıvanın tarixi, mədəniyyəti, elmi və təhsilinin inkişafı sahəsində səylərini artırmalı, yeni əsərlər yazılmalıdır.

Ali Məclisin Sədri Naxçıvan Muxtar Respublikasının inkişafında əməyi olanlara təşəkkürünü bildirmişdir.

Naxçıvan Dövlət Universitetinin müəllimi, tarix üzrə fəlsəfə doktoru Allahverdi Hüseynov demişdir ki, vaxtilə məhdud imkanlarla fəaliyyətə başlayan Naxçıvan Dövlət Universiteti bu gün dünyanın ən müasir ali təhsil ocaqlarındandır. Bu, Naxçıvanda təhsilin inkişafının nəticəsidir. Muxtar respublikada gənc nəslin hərtərəfli təhsil almasına və əsl vətəndaş kimi yetişməsinə böyük qayğı göstərilir. Sevindirici haldır ki, yaradılan şərait, göstərilən qayğı öz bəhrəsini verməkdədir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyada seminar keçirilib



***Fevralın 9-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyada 52 dövlət orqanı nümayəndəsinin iştirakı ilə "Dövlət orqanlarında kargüzarlığın aparılması qaydaları" və "Telefon müraciət xidməti vasitəsilə şifahi müraciətlərin qeydə alınması qaydaları" mövzularında seminar keçirilib.***

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın sədri İsmayıl Qəribli çıxış edərək bildirib ki, kargüzarlıq dedikdə, sənədlərin hazırlanması və rəsmiləşdirilməsi, onların hərəkətinin təşkili, uçotu və saxlanması sahəsində fəaliyyət başa düşülür. Kargüzarlıq sisteminin qurulması dövlət orqanlarının səmərəli fəaliyyət göstərməsinə və idarəetmə qərarlarının vaxtında qəbul edilməsinə səbəb olur. Bu baxımdan dövlət orqanlarında kargüzarlığın düzgün təşkil edilməsi mühüm əhəmiyyət kəsb edir. Lakin bir sıra hallarda sənədlərin hazırlanmasında nöqsanlar müşahidə olunur. Bugünkü seminarın məqsədi kargüzarlıq fəaliyyəti ilə bağlı müvafiq təlimatın tələblərinin bu sahə üzrə məsul olan dövlət qulluqçularının diqqətinə çatdırılmasıdır.

İsmayıl Qəribli digər mövzu ilə bağlı deyib ki, "Vətəndaşların müraciətləri haqqında" Qanuna əsasən vətəndaşların yazılı və şifahi müraciətləri qeydə alınmalı və cavablandırılmalıdır. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 1 sentyabr tarixli qərarı ilə "Telefon müraciət xidməti vasitəsilə şifahi müraciətlərin edilməsi, qəbulu, qeydiyyatı və cavablandırılması Qaydası" təsdiq olunub. Keçirilən seminarın məqsədi həmçinin bu sahədə qanunvericiliyin tətbiqi ilə bağlı seminar iştirakçılarını məlumatlandırmaqdır.

Sonra komissiyanın şöbə müdiri Mahir Abbasov dövlət orqanlarında kargüzarlığın aparılması işindən, o cümlədən sənədlərin hazırlanmasından, qeydiyyatından, hərəkətindən, icrasından, uçotundan və arxivə verilməsindən, sektor müdiri Türkan Gülməmmədli isə telefon müraciət xidməti vasitəsilə şifahi müraciətlərin qeydə alınması, dərhal və ya müraciət vərəqəsi hazırlanmaqla qanunvericilikdə müəyyən edilmiş müddətdə cavablandırılması, eyni zamanda altıaylıq və illik arayışın hazırlanması və təqdim edilməsi qaydalarından danışıblar.

Slaydlarla müşayiət olunan çıxışlardan sonra seminar iştirakçılarını maraqlandıran suallar ətraflı cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın mətbuat xidməti***

## Gənc nəslin ekoloji maarifləndirilməsi diqqət mərkəzindədir

***Təbiəti qorumaq, onu daha da zənginləşdirmək və əlverişli ekoloji şəraitin yaradılmasını təmin etmək muxtar respublikamızda aparılan uğurlu ekoloji siyasətin tərkib hissəsidir. Bu baxımdan Naxçıvanın zəngin təbiətinin tanıdılması, təbliğ edilməsi və bu sahəyə gənclərin diqqətinin artırılması üçün maarifləndirici tədbirlərin keçirilməsi böyük əhəmiyyət daşıyır. Gənc nəslin ekoloji biliklərinin artırılmasında orta və ali təhsil müəssisələrində ekoloji seminar-sərgilərin təşkili də az rol oynamır.***

Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyindən aldığımız məlumata görə, nazirliyin aidiyyəti təşkilatlarla birgə hazırladığı tədbirlər planına uyğun olaraq təhsil müəssisələrində şagird və tələbələrin ekoloji biliklərinin artırılması məqsədilə sərgi-seminarların keçirilməsi davam etdirilir. Belə tədbirlərdən biri fevralın 9-da Naxçıvan şəhər 16 nömrəli tam orta məktəbdə keçirilib.

Tədbiri məktəbin direktoru Məlahət Rüstəmova açaraq bildirib ki, ətraf mühiti qorumaq, təbiətə qayğı göstərmək üçün təbiəti öyrənməli, ekoloji təhsilə diqqəti artırmalıyıq.

Naxçıvan Muxtar Respublikası təhsil nazirinin müavini Əli Vəliyev muxtar respublikamızda ekoloji təhsilə gənclərin marağının artırılması sahəsində görülən işlər haqqında danışıb, belə tədbirlərin gənc nəslə aşıladığı ekoloji tərbiyədən bəhs edib.

Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin şöbə müdiri Mayis Əliyev "Naxçıvanın təbiəti və ekologiyası" mövzusunda çıxış edərək muxtar respublikanın fauna və flora müxtəlifliyinin, təbiətinin qorunmasının ümumxalq işi olduğunu bildirib.

Tədbirdə şagirdləri maraqlandıran suallar cavablandırılıb, mövzu ilə bağlı film nümayiş etdirilib.

Sonra şagirdlər Naxçıvanın zəngin təbiət nümunələrini özündə əks etdirən sərgi ilə tanış olublar.

**Səbuhi HƏSƏNOV**

***Culfa rayonunun Gülüstan Kənd Mərkəzində "Ailələrdə sağlam həyat tərzinin aşılanması, reproduktiv sağlamlıq, erkən və qanqohumluğu nikahlarının fəsadları" mövzusunda tədbir keçirilib. Tədbiri rayon İcra Hakimiyyəti başçısının müavini Kəmalə Səfərova açaraq belə tədbirlərin əhəmiyyətindən danışıb.***

## Sağlam ailə sağlam gələcəkdir



Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova "Ailədə qadının sağlam həyat tərzi aşılamasında əsas rolu" mövzusunda çıxış edərək bildirib ki, muxtar respublikada qadınların sağlamlıqlarının qorunması diqqət mərkəzində saxlanılır. Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 13 iyun tarixli Sərəncamı ilə qəbul edilən "Ana və uşaqların sağlamlığının yaxşılaşdırılmasına dair 2014-2020-ci illər üçün Dövlət Proqramı" uğurla icra olunur. Son illər muxtar respublikada böyük səhiyyə müəssisələri ilə yanaşı, onlarla həkim ambulatoriyasının, feldşer-mama məntəqəsinin istifadəyə verilməsi, müasir tibbi avadanlıqlarla təchiz edilməsi qadınların sağlamlıqlarının qorunmasına zəmin yaradıb, ana ölümünün minimuma endirilməsinə gətirib çıxarıb. Hər bir yaşayış məntəqəsində olduğu kimi, Gülüstan kəndində də yaşayan qadınların sağlamlıqlarının qorunması üçün dövlətimiz tərəfindən lazımi şərait yaradılıb. Dövlətimizin qadınlara göstərdiyi qayğı kimi qadınlarımız da öz ailəsinə qayğı ilə yanaşmalı, övladlarının layiqli vətəndaş kimi böyüməsinə çalışmalıdırlar.

Vurğulanıb ki, ailədaxili münasibətlər sisteminin düzgün tənzimlənməsi, ailənin xoşbəxtliyi bir sıra mühüm elementlərdən asılıdır. Bunlar olmadan sağlam ailə barəsində danışmaq mümkün deyil. Bunlardan ən birincisi ailədə ananın üzərinə düşən vəzifələri düzgün yerinə yetirməsidir ki, bu vəzifə çox böyük məsuliyyət tələb edir. İnsan ailədə dünyaya gəlir. Onun ilk sosial mühiti ailəsidir, əldə etdiyi ilk təcrübə və biliklər məhz anadan və ailənin digər üzvlərindən əxz etdikləridir. Ana yeni nəsli mövcud ictimai şəraitdə həyata hazırlamalı, ailə şəraitində şəxsiyyətin normal şəkildə formalaşması üçün övladlarına zəruri olan bilik, bacarıq və vərdişləri mənimsətməlidir.

Sonra Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzinin həkim-ginekoloqu, tibb üzrə fəlsəfə doktoru Gültəkin Əliyeva "Hamilə qadınların qidalanması, gigiyenası və qadınlarda virus hepatitlərinin fəsadları" mövzusunda çıxış edərək qadınların sağlamlıqlarının qorunması yolları, reproduktiv sağlamlıq barədə slayd vasitəsilə tədbir iştirakçılarına məlumat verib. Bildirib ki, hepatit qaraciyərin iltihabı, toksiki, travmatik zədələnməsidir. Bu səbəblərin başında virus infeksiyaları durur. Virusların törətdiyi hepatit xəstəliyinin bəziləri virusla çirklənmiş su və qida maddələrinin qəbulu ilə, B, C, D, G tipli hepatitlər isə qanla və sairə yollarla digərinə ötürülür. Xəstəliyin son nəticəsi isə qaraciyər hüceyrələrinin tədricən ölməsidir. Bu zaman qaraciyər fəaliyyətini itirməklə insanın ölümünə səbəb olur. Buna görə də hər bir ana sağlam həyat tərzi yaşamaqla özünü və dünyaya gətirəcək övladını xoşagəlməz hadisələrdən uzaqlaşdıra bilər.

Sonda tədbir iştirakçılarının sualları cavablandırılıb, onlara müvafiq mövzularda maarifləndirici broşürlər paylanılıb.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

# Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsində *“Gülüstan türbəsi” kitabının təqdimat mərasimi keçirilib*






***Təqdimat mərasimini giriş sözü ilə AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev açaraq bildirib ki, Naxçıvan ərazisi tarix və mədəniyyət abidələri ilə çox zəngin olan bir diyardır. Belə abidələrdən Möminə xatın, Yusif Küseyir oğlu, Darkənd türbələrini, Əlincəçay xanəgahını, Qarabağlar Türbə Kompleksini və onlarla nadir sənət incilərini qeyd edə bilərik. Həmin abidələr içərisində Gülüstan türbəsinin öz yeri və mövqeyi var. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Gülüstan türbəsinin bərpası və tədqiq edilməsi haqqında” 7 oktyabr 2015-ci il tarixli Sərəncamına uyğun olaraq Gülüstan türbəsi tədqiq və bərpa edilib.***

Qeyd olunub ki, Gülüstan türbəsi Azərbaycan miqyasında az tədqiq olunan abidələr qrupuna aiddir. Bu, onunla əlaqədardır ki, abidə üzərindəki kitabələr bizə gəlib çatmadığından onun haqqında müfəssəl məlumatlar əldə etmək mümkün olmayıb. Lakin 8 oktyabr 2015-ci ildə yaradılan tədqiqat qrupunun üzvləri bəzi məlumatlar toplaya bilib və həmin məlumatlar bu kitaba daxil edilib. Əsərdə türbə, onun quruluşu, ornament bəzəkləri, naxışları haqqında məlumat verilir, müxtəlif tədqiqatçıların türbənin tikilmə tarixi haqqındakı fikirləri müqayisə edilir. Əcəmi Naxçıvaninin istifadə etdiyi həndəsi ornamentlərin izlərinin bu türbədə də olduğunu əsas götürən müəlliflər onun XII əsrin sonlarında tikildiyi haqqında fikirlərini ümumiləşdirirlər. Türbədə dəfn olunanın kimliyinə yenə də mənbələrə istinad edilməklə aydınlıq gətirilib. Övliya Çələbinin məlumatından aydın olur ki, sərdabədə dəfn olunan şəxsin qəbirüstü abidəsi üzərində “Hüseyn Baykaranın oğlu, arzusuna çatmayan Bahadır Şəfad” sözləri yazılıb. Bu faktdan istifadə etməklə türbədə dəfn olunanın kimliyi üzə çıxıb. Hüseyn Baykara Əmir Teymurun nəslindən olan Xorasan hökmdarı olub. XV əsrin 70-ci illərində Heratda hakimiyyətə gəlib. Onun oğlu Bahadır Şəfad Naxçıvanda vəfat edib və burada əvvəlcədən mövcud olan simvolik türbənin sərdabəsində dəfn edilib.

Əsərdə Gülüstan kəndinin etnoqrafiyasına da geniş yer verilib. Məqalələr toplusunun axırıncı məqaləsi Gülüstan türbəsinin ətrafından toplanmış keramika məmulatlarına və onların təhlilinə həsr edilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Rəhman Məmmədov çıxış edərək bildirib ki, “Gülüstan türbəsi” kitabının təqdimatı Naxçıvan Muxtar Respublikasının yaradılmasının 93-cü ildönümünə təsadüf edir. Naxçıvan Muxtar Respublikasının yaradılması Azərbaycanın siyasi tarixinin mühüm əhəmiyyətli hadisəsidir. Ümummilli liderimiz Heydər Əliyev deyirdi ki: ***“Naxçıvan Muxtar Respublikasının yaradılması Azərbaycan xalqının olduqca mürəkkəb bir siyasi şəraitdə əldə etdiyi böyük tarixi nailiyyətdir”.***

“Naxçıvan Muxtar Respublikasının ölkəmizin müstəqillik tarixində mühüm əhəmiyyəti olub. Naxçıvan Muxtar Respublikası tarixin heç bir dövründə indiki qədər inkişaf etməyib. Naxçıvan Muxtar Respublikası bütün sahələrdə uğurlu yol keçib. Bunun nəticəsini təkcə rəqəmlərdə yox, eyni zamanda real həyatda, şəhər və rayon mərkəzlərimizin, kəndlərimizin dəyişən simasında, tikilən infrastruktur obyektlərində, insanların firavanlığının, həyat şəraitinin yaxşılaşmasında görürük. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqəti sayəsində muxtar respublikada iri miqyaslı tikinti-quruculuq, abadlıq və bərpa işləri aparılıb, tarixə, mədəniyyətə, təhsilə və elmə qayğı artırılıb”, – deyən Rəhman Məmmədov vurğulayıb ki, son illər muxtar respublikamızda tarixi abidələr də dövlət qayğısı ilə əhatə olunub. Onların pasportlaşdırılması, bərpası, tədqiqi və təbliği sahəsində ardıcıl tədbirlər görülür, abidələrə yeni həyat verilir. Belə abidələrdən biri də Əcəmi Naxçıvani memarlıq məktəbinin yadigarı olan XII əsrə aid Gülüstan türbəsidir.

Türbə uzun müddət, xüsusilə keçən yüzillikdə baxımsız qalaraq unudulmuş, buna görə də təbii qüvvələrin təsirindən güclü aşınmalara məruz qalmışdı. Həmin vaxt kiçik istisnalar nəzərə alınmazsa, türbə sistemli və hərtərəfli tədqiq olunmamışdı. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Gülüstan türbəsinin bərpası və tədqiq olunması haqqında” 7 oktyabr 2015-ci il tarixli Sərəncamına əsasən Gülüstan türbəsində bərpa işləri aparılaraq tarixiliyi saxlanılmaqla möhtəşəmliyi özünə qaytarılıb. Yüksək səviyyədə bərpa olunaraq yeni həyat verilən, Azərbaycan memarlığının möhtəşəm nümunələrindən olan Gülüstan türbəsi muxtar respublika əhalisinin, həmçinin muxtar respublikaya gələn qonaqların Azərbaycan mədəniyyətinin gözəl nümunəsi kimi ən çox ziyarət etdiyi abidələrdən birinə çevrilib.

Tədqiqat qrupu türbənin tarixi ilə bağlı yeni faktlar aşkara çıxarıb, abidənin memarlıq formaları, ətraf ərazinin arxeologiyası, etnoqrafiyası, tarix və memarlıq abidələri, keramika məmulatı haqqında məlumatlar toplayıb, onlar əsasında türbə və ətraf ərazilərlə əlaqədar araşdırmalar aparıb.

Vurğulanıb ki, bu gün təqdimatı keçirilən “Gülüstan türbəsi” kitabı da məhz həmin tədqiqat qrupunun apardığı araşdırmaların nəticələrini özündə əks etdirir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun təşkilatçılığı ilə Azərbaycan, ingilis və rus dillərində nəşr olunan kitabda Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin türbənin bərpası ilə bağlı imzaladığı sərəncamın mətni, Gülüstan türbəsi, onun tarixi, memarlıq xüsusiyyətləri, türbə ətrafındakı tarix-memarlıq abidələri və etnoqrafiyası haqqında məlumatlar verilib, türbənin bərpadan əvvəl və bərpadan sonrakı şəkilləri yer alıb.

Qeyd olunub ki, Naxçıvan Muxtar Respublikasının tarix-mədəniyyət abidələri özlərinin ikinci həyatını yaşayır. Bu abidələr heç vaxt indiki qədər diqqət və qayğı ilə əhatə olunmayıb, xalqımıza tanıdılmayıb, təbliğ edilməyib. Bütün bunlar Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tarixi-mədəni irsimizə göstərdiyi diqqət və qayğının nəticəsi, Naxçıvanın muxtariyyətinin uğurlarıdır.

Rəhman Məmmədov “Gülüstan türbəsi” kitabının təqdimatı münasibətilə tədbir iştirakçılarını təbrik edib, elm adamlarına uğurlar arzulayıb.

Sonra AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Fəxrəddin Səfərlinin, institutun şöbə müdirləri, AMEA-nın müxbir üzvü Vəli Baxşəliyevin və tarix üzrə fəlsəfə doktoru Toğrul Xəlilovun çıxışları olub. Çıxış edənlər Gülüstan türbəsi haqqında ətraflı məlumat veriblər, muxtar respublikada tarixi abidələrə göstərilən diqqət və qayğıya, bu türbənin bərpasına, “Gülüstan türbəsi” kitabının və son illərdə onlarla belə əsərin nəşrinə görə elm adamları adından Ali Məclisin Sədrinə minnətdarlıqlarını ifadə ediblər.

## Məmməd Araz yaradıcılığı rəsmlərdə




***Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda rəssam Kirman Abdinin Məmməd Araz poeziyasına həsr etdiyi qrafika janrında çəkdiyi əsərlərinin əsasında çap olunmuş “Məmməd Araz qrafik albomu”nun təqdimat mərasimi keçirilib.***

Tədbirdə çıxış edən birliyin sədri, Azərbaycan Respublikasının Əməkdar rəssamı Ülviyyə Həmzəyeva bildirib ki, Məmməd Araz yaradıcılığı Kirman Abdin üçün hər zaman maraqlı olub. O, Məmməd Araz yaradıcılığına 3 aspektdən yanaşıb, bu görkəmli şairi həyata gülən, həyatda qəm çəkən və həyatda düşünən aspektdə göstərməyə çalışıb. Onun üçillik zəhmətinin bəhrəsi hədər getməyib. Şairin odda qovrulmuş misralarının hərarətini rəssam bədii təxəyyülü ilə duyub, gözəl tablolar yaradıb və məqsədinə nail olub. Kirman Abdinin bədii axtarışları və Məmməd Araz poeziyası ilə üst-üstə düşən, bədii estetikliyi ilə diqqəti cəlb edən “Dünya heç kimin”, “Şəhriyar gəlmədi”, “Qayalara həkk olmayan söz itər, Bu bahardan o bahara iz itər” və digər tablolarda Məmməd Araz poeziyasının nəhayətsizliyini və rəssam təxəyyülünün çalarlarının vəhdətini görmək və sezmək mümkündür.

Qeyd olunub ki, şairin “Bu gecə yuxumda Arazı gördüm” şeirindəki fəlsəfi duyumun qrafik görüntüsünü təsvir etmək rəssamdan güclü yaradıcılıq tələb edir və Kirman Abdin bu gücü özündə tapa bilib.

Təqdimat mərasimində çıxış edən Azərbaycan Respublikasının Əməkdar rəssamı Telman Abdinov, Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Əli Səfərov bu albomun hazırlanmasını ölkəmizdə, onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında sənət və sənət adamlarına göstərilən qayğının ifadəsi kimi dəyərləndiriblər.

Sonra rəssamın bu mövzuda yaratdığı əsərlərdən ibarət sərgiyə baxış olub.

## “Naxçıvan dünya mətbuatında” kitabının təqdimatı olub

Dünən “Şərq qapısı” qəzetinin redaksiyasında keçirilən təqdimat mərasimini qəzetin baş redaktoru Tural Səfərov açıb, yeni nəşr barədə məlumat verib. Bildirilib ki, təqdimat mərasimi Naxçıvanın muxtariyyət statusu qazanmasının 93-cü ildönümünə təsadüf edir. Muxtariyyət Naxçıvanın ən böyük sərvətidir və bugünkü Naxçıvan ötən illər ərzində bunun bəhrələrini görüb. Son 20 ildə isə doğma diyarımız inkişaf və tərəqqisinin yeni dövrünü yaşayır. Qısa zaman kəsiyində Naxçıvan əsrlərə bərabər inkişaf yolu keçib. Naxçıvanın beynəlxalq tədbirlərin keçirildiyi bir məkana çevrilməsi, qədim diyarımızda müasir turizm infrastrukturunun yaradılması muxtar respublikaya gələn xarici qonaqların sayını artırıb. Son illər Naxçıvana gələn dünyanın tanınmış ictimai xadimləri, jurnalistləri muxtar respublikanın inkişafına, burada yaradılan sabitliyə heyranlıqlarını bildiriblər, dünyanın nüfuzlu mətbuat orqanlarında qədim diyarımız barədə yazılar çap etdiriblər. Həmin yazıların bir qisminin toplandığı “Naxçıvan dünya mətbuatında” kitabının çap olunması muxtar respublikada kütləvi informasiya vasitələrinə, kitab nəşrinə göstərilən ardıcıl diqqət və qayğının davamıdır.

Təqdimat mərasimində Naxçıvan Mətbuat Şurasının sədri Rövşən Hüseynov və “Şərq qapısı” qəzetinin məsul katibi Muxtar Məmmədov çıxış ediblər. Qeyd olunub ki, “Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyində yüksək poliqrafik keyfiyyətlə nəşr olunan “Naxçıvan dünya mətbuatında” adlı kitabda muxtar respublikaya səfər edən ictimai və elm xadimlərinin, jurnalistlərin bu diyar haqqında qələmə aldıqları yazılar, onlarla aparılan müsahibələr toplanılıb. Kitab “Naxçıvan dünya mətbuatında” və “Naxçıvan xarici qonaqların gözü ilə” fəsillərindən ibarətdir. Nəşr 2004-cü ilin noyabr ayında Rusiyanın “İzvestiya” qəzetində dərc olunmuş “Naxçıvan Muxtar Respublikası: tarixi-siyasi məlumat”la açılır. Bu, muxtar respublika haqqında ilk rəsmi məlumat vermək baxımından dəyərli bir vasitə kimi diqqəti çəkir.

Vurğulanıb ki, kitabın dəyərli məziyyətlərindən biri yazı və müsahibələrə verilmiş sərlövhələrin, geniş mənada, bu torpaqda yaşayış başlanandan bu günə qədər keçdiyi yola işıq salmasıdır. Diqqət yetirək: “Biz öz torpağımızda yaşayırıq”, “Mağara tədqiqatçıları üçün füsunkar mehmanxana”, “Ordubad: Avrasiyanın ürəyində qədim şəhər”, “Nuhun gəmisi harayacan üzübmüş?”, “Allah yurdu Naxçıvan”, “Turizm baxışı: Naxçıvan əfsanəsi”. Bu başlıqlar Naxçıvanın tarixini olduğu kimi öyrənmək baxımından diqqət çəkir.

Naxçıvanı Qafqaz dağlarının San-Fransiskosu adlandıran Amerikanın “Vice” jurnalının əməkdaşı Mark Heyin, türkoloq Murad Acının, sloveniyalı jurnalist Stefano De Francesehin, isveçrəli Nikoletta Hermanın, rusiyalı Andrey Petrovun, Oleq Kuznetsovun, italiyalı arxitektor Laura Perettonun, israilli Jacqui Lichtin, pakistanlı Raca Mahmud Battinin muxtar respublikanın bölgələri, tarixi və təbiət abidələri, emal və istehsal müəssisələri, təhsil və səhiyyə ocaqları barədə qələmə alınmış yazıları adıçəkilən kitaba ensiklopedik dəyər verib. Bu sırada Amerika Birləşmiş Ştatlarından olan jurnalist Peter Taseni xüsusi vurğulamaq lazımdır. Bir neçə yazısı bu kitabda özünə yer alan Peter Tase Naxçıvanla bağlı çoxsaylı məqalələrin müəllifidir. Həmin məqalələr dünyanın bir sıra ölkələrinin mətbuatında dərc olunub.




Diqqətə çatdırılıb ki, kitabın ikinci fəsli muxtar respublikaya gələn qonaqlarla aparılmış müsahibələrdir.

Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Şurasının üzvü Sara Əzimova bu kitabın çap olunmasının əhəmiyyətindən danışıb, bu işdə əməyi olan jurnalistləri təbrik edib.

Təqdimat mərasimində çıxış edən Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin baş məsləhətçisi Ülvi Hüseynli tədbir iştirakçılarını Naxçıvanın muxtariyyət qazanmasının 93-cü ildönümü münasibətilə təbrik edib. Bildirilib ki, son illər Naxçıvan Muxtar Respublikasında kütləvi informasiya vasitələrinin inkişafı istiqamətində mühüm tədbirlər həyata keçirilib, jurnalistlərin fəaliyyəti üçün hərtərəfli şərait yaradılıb. Naxçıvan televiziyasının və “Şərq qapısı” qəzetinin internet saytının yaradılması ilə informasiya blokadası yarılıb, muxtar respublikamız barədə dünya ictimaiyyətinə dolğun məlumatların çatdırılması təmin edilib. Naxçıvanın hərtərəfli inkişafı, tarixi abidələrin bərpası, müasir turizm infrastrukturunun yaradılması və muxtar respublikanın tarixinin, turizm obyektlərinin geniş təbliği Naxçıvana gələn turistlərin sayını artırıb. Təbii ki, həmin qonaqların sırasında tanınmış jurnalistlər və ictimai xadimlər də olub. Onların Naxçıvan barədə hazırladıqları yazılar dünyanın nüfuzlu mətbu orqanlarında işıq üzü görüb. Həmin yazıların və müsahibələrin bir kitab halında toplanması, bu kitabın muxtar respublikanın 93-cü ildönümündə təqdimat mərasiminin keçirilməsi əlamətdar hadisədir.

Ülvi Hüseynli muxtar respublikanın kütləvi informasiya vasitələrində çalışan jurnalistləri yeni kitabın işıq üzü görməsi münasibətilə təbrik edib, gələcəkdə onlara bu prosesdə daha fəal olmağı arzulayıb.

**Xəbərlər şöbəsi**

*Fevralın 8-də Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının səhnəsində Rza Təhmasib adına Şərur Rayon Xalq Teatrı Nəcəf bəy Vəzirovun "Dələduz" tamaşasını teatrsevərlərə təqdim edib.*

## Şərur Xalq Teatrı Naxçıvan şəhər tamaşaçıları qarşısında





Ötən il yaradılmasının 35 illiyi qeyd olunan Şərur Rayon Xalq Teatrının muxtar respublikada teatr sənətinin inkişafında və təbliğində özünəməxsus yeri vardır. Teatr bu illər ərzində hazırladığı müxtəlif məzmunlu tamaşalarla rayon sakinlərinin estetik zövqünün formalaşmasında, gənc nəslin milli dəyərlər ruhunda tərbiyəsində, insanların asudə vaxtının mənalı və səmərəli keçirilməsində əhəmiyyətli rol oynayıb. Xalq teatrının "Hekayəti-Müsyö Jordan və Dərviş Məstəli şah", "Çimnaz xanım yuxudadır", "Quyruqlu ulduz", "Rəhmə gəl, mələyim", "Qısqanc ər", "Ac həriflər", "Yuxu" və başqa tamaşaları teatrsevərlər tərəfindən rəğbətlə qarşılanıb.

Görkəmli dramaturq Nəcəf bəy Vəzirovun "Dələduz" kiçikhəcmli komediyası ədibin vəfatından sonra onun arxivindən tapılaraq 1954-cü ildə ilk dəfə nəşr edilib. Fransız xalq dramı olan "Cənab Pantelen" əsərinin süjet xəttindən iqtibas edilən "Dələduz" komediyasının mövzusu tacir həyatından götürülüb. Lakin komediyada milli kolorit də nəzərə alınıb. Tacir mühitindəki fırıldaqçılığın ifşası komediyanın əsas ideyasını təşkil edir.

"Dələduz" komediyasının əsas qəhrəmanı Mirzədadaş (aktyor Nemət İslamoğlu) işi və peşəsi olmayan, fırıldaqçılıqla yaşayan bir dələduzdur. Mirzədadaş tacir Məcidin (aktyor Arif Nağıyev) beş yüz manatlıq malını yeyən Qurbanəliyə (aktyor Məhərrəm Əbilsoy) məhkəmədə udacağını yarı bölmək şərtilə vəkil olur və məhkəmədə qurduğu hiylə ilə işi "cavabdehin" xeyrinə kəsdirir.

"Dələduz" tamaşasında daha maraqlı cəhət divanbəyinin (aktyor Nəsimi Məmmədzadə) işə çox yüngül yanaşması və ədalətsiz bir qərar çıxarmasıdır. Divanbəyi həm axmaq, həm də ədalətsiz bir hakim təsiri bağışlayır.

Tamaşa, əslində, bir əsr bundan əvvəlki cəmiyyətin məhkəmə sistemində olan qanunsuzluqları göstərir və tənqid edir. O dövrün eybəcərliklərini və eyiblərini tənqid etməklə bərabər, fırıldaqçılığı, dələduzluğu da ifşa edən bu tamaşada aktyorların ifaları gülüş doğurur. Aktyorların ifa tərzi tamaşaçıda xoş təəssürat yaradır. Görkəmli dramaturq bu əsərdə həm də pul düşkünlərinin canlı surətlərini yaradıb və onları ifşa edib. Gülcahan (İlkanə Cavadlı) və Fərraş (Nurəli İsmayılov) surətləri də komediyada maraqlı personajlardır.

Tamaşanın rejissoru Nemət İslamoğlu, musiqi tərtibatçısı Elçin İsmayılov, tərtibatçı rəssamı isə Arif Nağıyevdir.

Gülüşdoğuran səhnələrlə zəngin olan və realist dramaturgiyamızın az müraciət olunan bu nümunəsi tamaşaçılar tərəfindən maraqla qarşılanıb.

**Əli RZAYEV**

*Naxçıvan şəhərindəki Gənclər Mərkəzində Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərinin şagirdləri arasında növbəti "Lira" musiqili-intellektual oyunu keçirilib.*

## "Lira" musiqili-intellektual oyunu keçirilib

Oyun başlanmazdan əvvəl komandalar arasında seçim turunun keçirilməsi haqqında məlumat verilib. Bildirilib ki, burada ən çox bal toplayan 4 komanda, II mərhələdə isə 3 komanda iştirak edəcək. Hər mərhələdə iştirakçılara 25 sual veriləcək və ən çox bal toplayan komandalar oyunun əsas turunda iştirak etmək hüququ qazanacaqlar.

Oyunda "Turan" (Babək Rayon Uşaq Musiqi Məktəbi), "Rast" (Şərur Rayon Çərçiboğan Kənd Uşaq Musiqi Məktəbi), "Segah" (Kəngərli Rayon Çalxanqala Kənd Uşaq Musiqi Məktəbi), "Allegro" (Naxçıvan Şəhər Uşaq İncəsənət Məktəbi), "Əlincə" (Culfa Rayon Bənəniyar Kənd Uşaq Musiqi Məktəbi), "Xəmsə" (Naxçıvan Şəhər Ə.Cavid adına Uşaq Musiqi və Bədii Sənətkarlıq Məktəbi), "Arazbarı" (Şərur Rayon Yuxarı Daşarx Kənd Uşaq Musiqi Məktəbi) komandaları yarışıb.

Əsas tur hər biri 5 nəfərdən ibarət olan 4 komanda arasında keçirilib və 3 mərhələdən ibarət olub. Birinci mərhələdə görkəmli bəstəkarların həyat və yaradıcılığı barədə, II mərhələdə musiqi əsərlərini dinləmə yolu ilə təyinetmə formatında, III mərhələdə isə şagirdlərə ümumi musiqi dünyagörüşünə dair suallar verilib. Hər sualın düzgün cavabı 100 balla qiymətləndirilib.

Maraqlı və gərgin keçən musiqili-intellektual oyunda musiqi məktəblərinin şagirdləri bəstəkarlarla bağlı sualları cavablandırmaqda fəallıq göstəriblər. Onlar görkəmli Azərbaycan və dünya bəstəkarları Üzeyir Hacıbəylinin, Fikrət Əmirovun əsərlərini dinləmə yolu ilə təyin ediblər, musiqinin ümumi-nəzəri məsələləri ilə bağlı sualları cavablandırıblar.

Bütün suallar cavablandırıldıqdan sonra ən yüksək bal toplamış komandalar mükafatlandırılıblar. "Rast" komandası I, "Əlincə" komandası II, "Turan" komandası III dərəcəli diploma layiq görülüb.

**Xəbərlər şöbəsi**

## 2017/2018-ci tədris ili üçün Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Polis Akademiyasına əyani təhsil üzrə kursantların qəbulu elanı

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Polis Akademiyasına qəbula namizədlər Azərbaycan dilini sərbəst bilən, boyu azı 165 sm (qızlar üçün 160 santimetr), çağırışçı kimi Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli idarə, şöbə və bölmələrində qeydiyyatda olan (qızlar istisna olmaqla), buraxılış siniflərində oxuyan və ya tam orta təhsilli, 16 yaşdan 18 yaşadək (cari ilin avqust ayının 1-dək 16 yaşı tamam olacaq və çağırışçı olmayan) Azərbaycan Respublikasının vətəndaşları sırasından seçilir.

Abituriyentlər Daxili İşlər Nazirliyinin xüsusi həkim komissiyasında müayinədən, habelə fiziki hazırlıq və seçmə komissiyalarında nazirlik tərəfindən müəyyən edilmiş normativlər üzrə sınaqdan keçməlidirlər (fiziki hazırlıq üzrə minimal normativlər oğlanlar üçün: turnikdə dartınma – 6 dəfə; qaçış 100 metr məsafəyə – 15 saniyə və 1000 metr məsafəyə – 4 dəqiqə; qolların üzərindən bədənin döşəmədən qaldırılması – 18 dəfə; arxası üstə uzanmış halda bədənin döşəmədən qaldırılması – 18 dəfə; qızlar üçün: arxası üstə uzanmış halda bədənin döşəmədən qaldırılması – 18 dəfə; qaçış 100 metr məsafəyə – 19 saniyə və 1000 metr məsafəyə – 5 dəqiqə 30 saniyə).

Seçmə komissiyalarının vaxtı barədə məlumatlar Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin *www.mia.gov.az* internet saytında yerləşdiriləcəkdir.

Sınaq və müvafiq yoxlamalardan müvəffəqiyyətlə keçən abituriyentlərin siyahısı qəbul imtahanlarına buraxılmaları üçün Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinə göndərilir.

İmtahanlar test üsulu ilə III ixtisas qrupunun fənləri üzrə Azərbaycan və rus dillərində keçirilir. Qəbul imtahanlarının keçirilməsi ilə bağlı bütün təşkilati tədbirlər, sənədləşdirmə, imtahanların vaxtı, yeri və digər şərtlər Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən müəyyən edilir və abituriyentlər bu məqsədlə həmin mərkəzin internet saytında və ya kütləvi informasiya vasitələrində verilən elanları izləməlidirlər.

Daxili İşlər Nazirliyinin Polis Akademiyasında dərslər 15 sentyabrda başlayır, tədris Azərbaycan dilində aparılır, təhsil müddəti 5 ildir. Akademiyaya qəbul olunmuş kursantlar 14 avqust-13 sentyabr tarixlərində akademiyada ilkin hazırlıq kursuna cəlb edilir, dövlət hesabına yataqxana, geyim forması, təqaüd və yeməklə təmin olunur, təhsil və kurs müddətində həmin akademiyanın ərazisində yerləşən yataqxanada qalırlar. Ətraflı məlumat *www.pa.edu.az* internet saytında yerləşdirilmişdir.

Məzunlara Hüquqşünaslıq ixtisası, polis leytenantı xüsusi və ehtiyatda olan leytenant hərbi rütbələri verilməklə daxili işlər orqanlarında müvafiq vəzifələrə təyin edilirlər.

İkili vətəndaşlığı, digər dövlətlər qarşısında öhdəlikləri olan şəxslər, 2017-ci ilin aprel və iyul tarixli çağırışlarında hərbi xidmətə getməli olan çağırışçılar, din xadimləri, məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli hesab edilmiş, cinayət törətdiyinə görə əvvəllər məhkum olunmuş, habelə barəsində cinayət işinin icraatına bəraətverici əsaslar olmadan xitam verilmiş, eləcə də "Azərbaycan Respublikası daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə" ilə müəyyən olunmuş digər şərtlərə uyğun gəlməyən abituriyentlər Daxili İşlər Nazirliyinin Polis Akademiyasına qəbul edilmirlər.

Daxili İşlər Nazirliyinin Polis Akademiyasına qəbul üçün namizədlər Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinə aşağıdakı sənədləri şəxsən təqdim etməlidirlər:

*- şəxsiyyət vəsiqəsi və doğum haqqında şəhadətnamə (əsli və surəti);*

*- təhsil müəssisəsinin buraxılış sinfində oxuması haqqında Daxili İşlər Nazirliyinə təqdim olunması üçün arayış və ya tam orta təhsil haqqında sənəd (attestat və surəti);*

*- yaşayış yeri üzrə tibb müəssisəsindən Daxili İşlər Nazirliyinə təqdim olunması üçün sağlamlıq haqqında arayış;*

*- ilkin hərbi qeydiyyata alınma haqqında vəsiqə (əsli və surəti);*

*- oxuduğu təhsil müəssisəsi tərəfindən Daxili İşlər Nazirliyinə təqdim olunması üçün verilmiş xasiyyətnamə;*

*- 9x12 sm ölçüdə 2 ədəd, 4x6 sm ölçüdə 4 ədəd fotoşəkil (papaqsız, rəngli, donuq kağızda).*

Naxçıvanda ərizə və sənədlərin qəbulu 2017-ci il mart ayının 10-dək hər gün (bazar və bayram günləri istisna olmaqla) saat $10^{00}$-dan $17^{00}$-dək Daxili İşlər Nazirliyinin inzibati binasında aparılacaqdır.

***Əlavə məlumat üçün əlaqə telefonları: 036-545-08-10 (155,156,160)***

### Unutsaq, unudularıq

## Sadıq Ordubadi kimdir?

*Müxtəlif vaxtlarda Orbad, Urdubad, Orduvad və sair adlandırılan Ordubad Naxçıvan torpağının ən gözəl məkanlarındandır. Tədqiqatçı Ə.Hüseyni isə bu toponimin əvvəl "Ordubad" adlanıb "Bəyin qalası" mənasını verdiyini bildirir. Ancaq bu toponimlə bağlı əslən ordubadlı olaraq bir çox fərqli fikirlər eşidə-eşidə böyümüşəm. Ordubadın möcüzəli təbiəti, sirli aləmi və təbii gözəlliyi XIX-XX əsrlərdə buraya səyahət etmiş bir sıra səyyahları da təəccübləndirmişdir.*

Rus alimi İ.Şopen, polyak tədqiqatçısı A.Petzold, fransız yazıçısı A.Düma və başqaları öz yazılarında bu gözəlliyi vəsf etmiş, Ordubada heyran qaldıqlarını bildirmişlər. Mühüm ticarət yolu ayrıcında yerləşən Ordubad Yaxın və Orta Şərq ölkələri ilə ticarət əlaqələri saxlamışdır. Mənbələrin məlumatına görə, hələ XVI əsrin ikinci yarısından başlayaraq Ordubaddan Venesiyaya, Marsel, Amsterdam və başqa Avropa şəhərlərinə ipək ixrac olunurdu. Görkəmli ordubadlılar bir çox hökmdarların yanında xüsusi vəzifə tutan şəxslərə çevrilirdilər. Bu əlaqələr həm də Ordubadda elmin, biliyin inkişafına stimul vermişdir. Bu gün Naxçıvanın adını tarixə həkk etdirən naxçıvanlılar haqqında öyrənmək, onların geniş səpkili irsini tədqiq etmək qarşımızda duran əsas vəzifələrdəndir.

Bu yazımızda elmi, biliyi ilə Naxçıvan torpağına şöhrət gətirən Sadıq Ordubadi haqqında danışacağıq. Mirzə Sadıq Ordubadinin həyatı haqqında məlumat çox azdır. Bir çox mənbədə onun Mirzə Kafinin qardaşı olmasıyla bağlı məlumatlar yer alıb.

Görkəmli maarifçi Məhəmmədəli Tərbiyət onun haqqında yazır: "O, öz şirin söhbəti, gözəl rəftarı, təmiz əxlaqı, xoş xisləti ilə məşhur olaraq, Xaqanicənnətməkanın (behişdə yeri olan xaqanın) məclisində şairlik edərdi. Mirzə Sadıq Ordubadi hicri-qəməri 970-də (1562-ci il) Hindistana getmiş və hal-hazırda (988/1580) Dəkəndə yaşayır".

Məhəmmədəli Tərbiyətin Mirzə Sadıq Ordubadi ilə bağlı verdiyi məlumatlar arasında onun mənəvi keyfiyyətlərinə xüsusi diqqət çəkməsi heç də adi hal deyil. Bu, Naxçıvan torpağının yetişdirdiyi simalara bu torpağın verdiyi yüksək əxlaqi dəyər və tərbiyənin tarixə nümayişi kimi son dərəcə qiymətlidir.

Hindistan camaatını öz biliyi ilə heyran edən Mirzə Sadıq Ordubadi orada görkəmli şəxs kimi hörmət görüb.

O, Cəlaləddin Dəvvaninin və Əbdürrəhman Caminin "Tövhid" haqqında dedikləri rübailərə cavab olaraq bir neçə rübai demiş və bu iki şairin şeirlərini izah etmişdir.

Mirzə Sadıq Ordubadi yaradıcılığında rübai janrına xüsusi diqqət göstərmişdir. Sadiqinin "Məcməül-Xəvas" əsərində bu haqda yazılıb: "Mövlana Mirzə Sadıq təkcə rübai deyil, həcv deməkdə məharətli idi". Qeyd edək ki, onun başına bu həcvlər səbəbindən bir çox hadisələr gəlmişdir.

Mirzə Sadıq Ordubadi barəsində "Həft iqlim", "Sübhi-gülşən" kimi əsərlərdə də bəhs olunub.

Dəkəndə Murtuza Nizamşah tərəfindən Mirzə Sadıq Ordubadiyə bir çox vəzifə tapşırılır. Əkbərşah Dəkəni aldıqdan sonra isə təəssüf ki, Qəribkuş qəsəbəsində Mirzə Sadıq Ordubadini öldürmüşlər".

Zuhuri Mirzə Sadıq Ordubadi haqqındakı şeirində yazır:

*Gözlərim buluddan çox axıdır qəm yağışı,*
*Gözünü aç bir bax, gözüm nə axıdır yaşı.*
*Qürbət torpağında sən nə zillətlər çəkdin,*
*Qəribliyin ağlattı bütün dağları-daşı.*

Mirzə Sadıq Ordubadi yuxarıda vurğulandığı kimi gözəl rübailər yazmışdır. Onun əldə etdiyimiz rübaisi çox maraqlıdır.

*Ağıl, get dağlarda, düzənliklərdə məskən sal,*
*Ey eşq, sən gəl qanlı bu ürəklərdə məskən sal!*
*Leyli didarını sən arzulayırsan əgər,*
*Məcnun gözlərinin pərdələrində məskən sal!*

Göründüyü kimi, Naxçıvan torpağının yetişdirdiyi görkəmli simalar bütün dünyada yurdumuzu, dəyərlərimizi tanıdıblar. Apardığımız tədqiqatlardan aydın olub ki, həmin dövrlərdə də Naxçıvan Nəqşi-cahanlığını bütün dünyaya sübut edib. Ümid edirik ki, gələcəkdə həmvətənlərimiz haqda daha geniş tədqiqatlar aparılacaq. Biz də onların yaradıcılıqlarını və keşməkeşli həyatlarını oxuyub bir daha bu torpağın nümayəndəsi olmağımızla fəxr edəcəyik.

**Nərgiz İSMAYILOVA**


ŞƏRQ qapısı

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1000. Sifariş № 113